Azərbaycan Respublikası İqtisadi İslahatların
Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Oktyabr 2022

www.ereforms.gov.az
info@ereforms.gov.az

“

**Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır.**

Avropa İttifaqı bizim üçün çox önəmli tərəfdaşdır və yeni saziş üzərində iş aparılır. Sazişin böyük əksəriyyəti artıq razılaşdırılmışdır və qalan məsələlər o qədər də böyük prinsipial xarakter daşımır. Nəqliyyat sahəsində əməkdaşlıq üçün yeni imkanlar yaradılıb. Çünki Azərbaycanın coğrafi vəziyyəti və müasir nəqliyyat infrastrukturu Avropa üçün də çox önəmlidir. Həm Şərq-Qərb, həm də Şimal-Cənub nəqliyyat dəhlizlərini nəzərdə tuturam. Avropa İttifaqı ölkələri bizim əsas ticarət tərəfdaşlarımızdır.



**Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVİN 2022-ci il 06 oktyabr tarixində Praqada Azərbaycan televiziya kanallarına müsahibəsi**

# MÜNDƏRİCAT

2022 İXRAC İCMALI oktyabr


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat ..... səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi ..... səh. 14

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat ..... səh. 18

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat ..... səh. 19

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat ..... səh. 21

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat ..... səh. 24

# 1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2022-ci ilin yanvar-sentyabr ayları ərzində **29,5 milyard ABŞ dolları** dəyərində mal ixrac olunmuşdur

## Cari ilin yanvar-sentyabr aylarında qeyri-neft sektoru üzrə ixrac **2,1 milyard ABŞ dolları** təşkil etmişdir

2022-ci ilin yanvar-sentyabr aylarında Azərbaycanın ümumi ixracı **29,5 milyard ABŞ dolları**, qeyri-neft sektoru üzrə ixrac **2,1 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixrac 2021-ci ilin doqquz ayı ilə müqayisədə **17%** artıb.

2022-ci ilin yanvar-sentyabr ayları ərzində kimya sənayesi məhsullarının ixracı 2,4 dəfə, alüminium və ondan hazırlanan məmulatların ixracı 38%, qara metallar və onlardan hazırlanan məmulatların ixracı 20,7% artmışdır.

Aqrar və aqrar sənaye məhsulları üzrə birgə ixracın statistik dəyəri **591,5 milyon ABŞ dolları** təşkil etmişdir. 2022-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən meyvə-tərəvəz məhsulları aqrar məhsullar qrupunun 92,9%-ini təşkil etmişdir. Qeyri-neft-qaz ixracının tərkib hissəsində əhəmiyyətli yer tutan aqrar-sənaye məhsullarının yaratdığı əlavə dəyər ötən ilin müvafiq dövrü ilə müqayisədə 17,6% artmışdır.

2022-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında karbamid (163,5 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda pambıq mahlıcı (147,1 milyon ABŞ dolları) ikinci, tomat (pomidor) (134,3 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2022-ci ilin yanvar-sentyabr ayları ərzində Rusiya Federasiyasına 602,2 milyon ABŞ dolları, Türkiyəyə 511,6 milyon ABŞ dolları, Gürcüstana 144,6 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 136,3 milyon ABŞ dolları və ABŞ-a isə 63,8 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2022-ci ilin sentyabr ayı üzrə ixrac 3,3 milyard ABŞ dolları, qeyri-neft sektoru üzrə ixrac isə 231,2 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin sentyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac 7,4% artaraq 49,7 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 1,7% artaraq 181,6 milyon ABŞ dollarına bərabər olub.

2022-ci ilin sentyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (74,6 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə (20,5 milyon ABŞ dolları) ikinci və Gürcüstan (18,5 milyon ABŞ dolları) üçüncü olub.

2022-ci ilin sentyabr ayında ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr (21,4 milyon ABŞ dolları) birinci, karbamid (21,3 milyon ABŞ dolları) ikinci və qızıl (18,4 milyon ABŞ dolları) üçüncü olub.



# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2022-Cİ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN SENTYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)





# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARI ƏRZİNDƏ AQRAR VƏ AQRAR SƏNAYE MƏHSULLARININ İXRACI

(2021-ci ilin müvafiq dövrü ilə müqayisə ilə, faizlə)



Aqrar məhsullar

Aqrar-sənaye məhsulları

**591,5 mln $**

2021/2022 **+12,7%**



**472,3 mln $** — Aqrar məhsullar, 2021/2022 **+11,5%**

**119,2 mln $** — Aqrar-sənaye məhsulları, 2021/2022 **+17,6%**

# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

**(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**



# 2022-Cİ İLİN SENTYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI oktyabr



# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI oktyabr

| | 2022 | 2021 |
|---|---|---|
| Karbamid | 163,5 | 49,9 |
| Pambıq mahlıcı | 147,1 | 149,5 |
| Tomat (pomidor) | 134,3 | 128,2 |
| Qızıl | 128,3 | 158,2 |
| Metanol (metil spirti) | 104 | 48,6 |
| İlkin formalı polipropilen | 72,4 | 86,9 |
| Meşə fındığı | 70,7 | 55,9 |
| Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 70,6 | 71,9 |
| Polimerləşmədə ilkin formalı maddələr | 65,5 | 51,4 |

# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2022-Cİ İLİN SENTYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
(2021-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

| | 2022 | 2021 |
|---|---|---|
| Polimerləşmədə ilkin formalı maddələr | 21,4 | 5,9 |
| Karbamid | 21,3 | 18,5 |
| Qızıl | 18,4 | 18,1 |
| Metanol (metil spirti) | 11,5 | 15,7 |
| PE İlkin formalı propilen sopolimerləri | 10,6 | 7,3 |
| Meşə fındığı | 9,6 | 11,8 |
| PE Xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen | 9,2 | 5,9 |
| PP İlkin formalı polipropilen | 8,1 | 11 |
| Alma | 7,6 | 6,1 |

2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2022-ci ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Baku Steel Company" MMC, "Mors Trading" MMC, "Almeyvə", "STP Alüminium" MMC, Şirinov Elvin Valeh oğlu, "P-Aqro" MMC, "Rose Servis" MMC, "Şimal AqroPark" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Socar Polymer" MMC, "Azəralüminium" MMC, "AzerGold" QSC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Geofizika və Geologiya İdarəsi", Naxçıvan MR Dövlət Energetika Xidməti.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2022 İXRAC İCMALI oktyabr



# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





3

# "AZƏRKOSMOS"A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" 19,3 milyon ABŞ dolları dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2022-ci ilin yanvar-sentyabraylarında "Azərkosmos" tərəfindən dünyanın 36 ölkəsinə **19,3 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. "Azərkosmos"-un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 82 faizini təşkil edib. 2022-ci ilin sentyabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə **2,1 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2022-ci ilin yanvar-sentyabr ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə **5 milyon ABŞ dolları** ilə Birləşmiş Krallıq, **3,9 milyon ABŞ dolları** ilə Fransa, **3,3 milyon ABŞ dolları** ilə Lüksemburq, **1,8 milyon ABŞ dolları** ilə BƏƏ və **1,1 milyon ABŞ dolları** ilə Pakistan qərarlaşıb.

# 2022-Cİ İLİN YANVAR-SENTYABR AYLARINDA "AZƏRKOSMOS" 19,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| | |
|---|---|
| 5 mln $ | Birləşmiş Krallıq |
| 3,9 mln $ | Fransa |
| 3,3 mln $ | Lüksemburq |
| 1,8 mln $ | BƏƏ |
| 1,1 mln $ | Pakistan |

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2022-ci ilin yanvar-sentyabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,7 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2022-ci ilin sentyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **155,5 milyon manat** təşkil edib. 2022-ci ilin yanvar-sentyabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,7 milyard manatlıq** əməliyyat aparıblar

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR
## (milyon manatla)

| | 2020 | 2021* | 2022 |
|---|---|---|---|
| Yanvar | 85,2 | 72,2 | 204,7 |
| Fevral | 72,9 | 112,2 | 186,5 |
| Mart | 53,9 | 93,2 | 158,5 |
| Aprel | 19,7 | 64,1 | 136,6 |
| May | 24,3 | 81,3 | 184,1 |
| İyun | 23,7 | 89,7 | 203,6 |
| İyul | 23 | 96 | 213,6 |
| Avqust | 25,6 | 105,3 | 214,6 |
| Sentyabr | 25,9 | 124,4 | 155,5 |
| Oktyabr | | | |
| Noyabr | | | |
| Dekabr | | | |
| | **354,2 mln** | **838,4 mln** | **1,7 mlrd** |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT



## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 3 milyard 48 milyon ABŞ dolları təşkil etmişdir

2022-ci ilin sentyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **35,1 milyon ABŞ dolları** təşkil edib.

2022-ci ilin yanvar-sentyabr aylarında Azexport.az portalına **356,3 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2022-ci ilin sentyabr ayında Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 35,1 milyon ABŞ dolları təşkil edib. 2022-ci ilin sentyabr ayında Azexport.az portalına edilən ixrac sifarişlərinin alma, xurma, qoz, pomidor, qurudulmuş meyvə, kərə yağı, mühərrik yağı, tikinti materialları, aliminium ərintiləri, buğda kəpəyi, düyü, nar, fındıq və s. məhsullar üstünlük təşkil edib.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2022-ci ilin 30 sentyabr tarixinə kimi (69 ay ərzində) Azexport.az portalına dünyanın **145 ölkəsindən** daxil olan ixrac sifarişlərinin dəyəri **3,048 milyard ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ
(milyon ABŞ dolları ilə)









# 2022-Cİ İLİN SENTYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

AZEXPORT.AZ
Made in Azerbaijan

- Alma
- Kərə yağı
- Pomidor
- Xurma
- Düyü
- Fındıq ləpəsi
- Nar
- Mühərrik yağı

6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT

## 2022-ci ilin oktyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 19,7 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2022-ci ilin oktyabr ayı ərzində 170 müraciət daxil olub. Müvafiq dövr ərzində **382 ədəd sertifikat** (138 ədəd mənşə, 8 ədəd baytarlıq, 222 ədəd fitosanitar, 14 ədəd CİTES) təqdim edilib.

2022-ci ilin oktyabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **19,7 milyon ABŞ dolları** dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir. Qeyd edilən dövr ərzində fiziki və hüquqi şəxslər tərəfindən qiymətli metallar, pendir, kərə yağı, mineral su, limonad, nar, alma, qarışıq şirələr, narşərab, dondurma məhsulu, iribuynuzlu heyvanların dəriləri, təmizlənmiş duzlanmış qoyun bağırsağı, akvakultur üsulu ilə yetişdirilmiş balıqların kürüsü, akvakultur üsulu ilə yetişdirilmiş balıqların dondurulmuş əti, vaksin, tibbi zəli, transpalet, kompüter, aqreqat. elektronasos, generator, polad boru, polad armatur yaymasının ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metallar, polad boru, süd məhsulları, meyvə şirələri və limonadın ixracı üstünlük təşkil etmişdir. İxrac edilən ölkələr arasında İsveçrə, Türkiyə, ABŞ, Gürcüstan, Rusiya, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, İtaliya, İsrail, Çin, Bolqarıstan, Tacikistan, Tatarıstan üstünlük təşkil etmişdir.



# 2022-Cİ İLİN OKTYABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)

2022
İXRAC İCMALI
oktyabr



# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ VERİLƏN SERTİFİKATLAR
(faizlə)

58,6%
Fitosanitar sertifikatı

35,6%
Mənşə sertifikatı

3,7%
CİTES sertifikatı

2,1%
Baytarlıq sertifikatı

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**


AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi






Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.



Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.gov.az

www.ereforms.gov.az

/iqtisadiislahat